**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaş Fərəcov Nadir İmanxan oğlunun 168 saylı 26 dekabr 2009-cu il tarixli müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Fərəcov Nadir İmanxan oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək, 66 saylı Biləsuvar seçki dairəsinin bir neçə seçki məntəqələri məntəqə seçki komissiyaları tərəfindən onların seçki hüquqlarının pozulmasını bildirmiş və müvafiq tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət tam, hərtərəfli və obyektiv surətdə araşdırılmışdır.

Müraciətdə göstərilən faktların dairə seçki komissiyası tərəfindən müəyyənləşdirilməli olduğunu nəzərə alaraq, şikayət aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün müvafiq seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Fərəcov Nadir İmanxan oğlunun müraciəti araşdırılması üçün aidiyyatı üzrə 66 saylı Biləsuvar seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərarın icrası ilə əlaqədar görülmüş tədbirlər barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Natiq Məmmədov

Üzvlər Fuad Cavadov

Ramiz İbrahimov

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Almas Qəhramanlı

Oktay Hümbətli